**UOT 82.1/-9**

**Nailə MUSTAFAYEVA**
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Məhəmməd Füzuli adına
Əlyazmalar İnstitutu
nailemustafayeva@yahoo.com.tr

# XX ƏSR AZƏRBAYCAN ƏDƏBİYYATINDA MÜXƏMMƏS JANRINDA YAZILMIŞ ŞEİRLƏRİN MÖVZU DAİRƏSİ

**Açar sözlər:** şeir, müxəmməs, Sabir, satira, misra
**Keywords:** poem, mukhammas, Sabir, satire, line
**Ключевые слова:** стихи, мухаммас, Сабир, сатира, строка

Tədqiqatçılar XX yüzilliyin əvvəllərindən Azərbaycan cəmiyyətində siyasi fəallığın artdığını, bir sıra siyasi, milli təşkilatların yarandığını, milli qüvvələrin birləşməyə başladığını qeyd edirlər [1, s.135-146]. Bütövlükdə Rusiya imperiyasında siyasi və milli qüvvələrin fəallığının artması müşahidə olunurdu. Bunu bir təhlükə kimi görən Çar Rusiyası hakimiyyəti "Böyük Ermənistan" xülyası ilə yaşayan erməni millətçilərini silahlandıraraq onlarla azərbaycanlılar arasında ədavəti qızışdırdı, Qarabağda, Şuşada, Azərbaycanın bir sıra bölgələrində çoxlu sayda insanın ölümünə, dağıntılara səbəb olmuş 1905-1906-cı illər erməni-müsəlman davası baş verdi. Azərbaycan ziyalıları, ədibləri bu faciəyə laqeyd qalmadılar. Əgər M.Ə.Sabir ilk dəfə 1905-ci ilin 1 iyulunda "Həyat" qəzetində çap edilmiş "Müsəlman və erməni vətəndaşlarımıza" adlı şeirində bir ölkənin vətəndaşları olan erməni və müsəlmanları sülhə çağırıb, ədavətin qızışmasında əsas günahkarın çar hakimiyyəti olduğuna işarə edirdisə, Mir Möhsün Nəvvab, Məmo bəy Məmai, Ricai, Şaiq, Şeyda kimi şairlər bu mövzuya həsr etdikləri şeirlərində əsas diqqəti erməni millətçilərinin məkrli məqsədlərinin ifşasına, onların fitnə-fəsadlarının qarşısını qəhrəmanlıqla alan Azərbaycan övladlarının şücaətinin göstərilməsinə yönəltmişlər. Qeyd edək ki, dövrün görkəmli ədibi M.M.Nəvvab (1833-1919) həmin hadisələrə həsr edilmiş "1905-1906-cı illərdə erməni-müsəlman davası" adlı əsər də yazmışdır. Onun "Bu səs mənə verdi can içrə ruhü rəvan" misrasıyla başlanan müxəmməsində təpədən-dırnağa qədər silahlanmış erməni millətçilərinə qarşı qəhrəmanlıqla döyüşüb onları məğlub edən xalqın igid oğulları öyülür; şeirdə qələbə sevinci, yüksək əhvali-ruhiyyə əksini tapmışdır.

XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərində yaşamış, Qarabağ ədəbi mühitinin yetirməsi Məmo bəy Məmai əsasən lirik-aşiqanə mövzulu şeirlər müəllifi olsa da, bəzi şeirlərində həmvətənlərini doğma yurdu düşmənlərdən, erməni millətçilərindən müdafiəyə çağırmış, daşnaklara layiqli cavab verən vətən övladlarını mədh etmişdir. "Yox" rədifli qəzəlində o, doğma yurdun təhlükədə olduğundan xəbərsiz həmvətənlərini ayılmağa çağırır:

Bir yanda vətən təhlükəsi canımı almış,
Bir fəhm edənim, anlayanım, dərk edənim yox [2, s.10].

Şairin 21 bəndlik "Olsun" rədifli müxəmməsində həmin dövrdə Qarabağda cərəyan edən hadisələr təsvir edilir, bu faciənin günahkarları göstərilir. Hadisələrin

bilavasitə şahidi olan Məmo bəyin bu əsərini tarixi bir sənəd kimi də qəbul etmək olar. Müxəmməsin qafiyə sistemi belədir: aaabb. İlk üç misra öz aralarında qafiyələnir, sonda gələn iki misra nəqərat kimi səslənir, öz aralarında qafiyələnir. Sonuncu misra bütün bəndlərdə təkrarlandığından şeiri müxəmməs-tərcibənd də adlandırmaq olar. Şeirin əvvəlində müəllif göstərir ki, Şuşada, Qarabağda, başqa bölgələrdə müsəlmanlarla ermənilər dostluq şəraitində yaşayırdılar. Daşnaklar Türkiyədən Azərbaycana gəldikdən sonra törətdikləri fitnə-fəsad nəticəsində qanlar töküldü, günahsız insanlar həlak oldu:

Şair çarın imzaladığı 1905-ci il manifestindən sonra imperiyada demokratik dəyişikliklərin getdiyini, belə bir fürsəti əldən verməyin böyük bir səhv olduğunu nəzərə çatdırır:

Bir baxın Dumda nə fəryad edirdi vükəla,
Sizdən ötrü o qədər səy edirdi üqəla,
Verməyin düşmənə fürsət, dəxi bəsdir, cühəla [9, s.177].

Müəllif Şuşada qırğınlar törədən erməni daşnaklarını gülüstanı xarabazara çevirən qarğalara bənzədir. Sonda bu münaqişədə "Ölən adamdı, axan qandı, düşən əsadır" [9, s.178] deyən şair hər iki tərəfi sülhə dəvət edir.

1905-1906-cı illərin qanlı hadisələri Azərbaycan xalqının, ziyalıların qəlbində dərin izlər buraxmış, gələcəyi düşünən bir sıra şahidlər tarixin bu ibrət dərsinin unudulmaması üçün gördüklərini qələmə almışlar. AMEA Əlyazmalar İnstitutunda B-641 şifri altında saxlanan əlyazmada hadisələrin şahidi olan Ricai, Şaiq, Rəhman, Sadiq, Haşim təxəllüslü şəxslərin müxtəlif nəzm şəkillərində yazdıqları şeirlər, o cümlədən, müxəmməslər toplanmışdır. Tədqiqatçı Jalə Şükürova bu toplunun mətnini müasir əlifbada, "Dər mədhi-müsəlmanan" adlı ayrıca kitabça halında nəşr etdirmişdir. Bu şeirlərdə ilkin diqqəti cəlb edən cəhət müəlliflərin vətənpərvərliyi, baş verənlərdən danışarkən tarixləri, məkan və şəxs adlarını dəqiqliklə göstərməyə çalışmalarıdır. Hiss olunur ki, əlyazmada toplanan əsərlər baş vermiş qanlı hadisələrin unudulmasını istəməyən müəlliflərin gələcək nəslə müraciətidir.

İbrahim Tahir Musayev, Mir Möhsün Nəvvab və başqalarının həmin mövzuya həsr etdikləri bir sıra vətənpərvərlik ruhlu müxəmməslərdə emosionallıq, səfərbəredicilik, sənətkarlıq diqqəti cəlb edir.

XX əsrin əvvəllərində Azərbaycan cəmiyyətində milli-istiqlal ideyalarının yayılması, siyasi fəallığın artması müşahidə olunur. Təhsilli ziyalıların sayının çoxalması, "Həyat", "İrşad", "Füyuzat", "Molla Nəsrəddin", "Açıq söz" kimi mətbuat orqanlarının, vətənpərvər şair və yazıçılarımızın fəaliyyətini genişləndirməsi Azərbaycan xalqının siyasi, milli özünüdərkinin formalaşması prosesində mühüm rol oynadı.

Dövrün şairləri milli istiqlal, azadlıq mövzulu şeirləri ilə mətbuatda çıxış edirdilər. Qeyd etmək lazımdır ki, poeziyamızda bu ideyalar oxuculara əsasən klassik şeirin əski formalarında çatdırılırdı. Professor Əhməd Cəfəroğlu bu barədə yazır: "Yeni şeir müəyyən mənada klassik şeirin şəkil və formasını mühafizə etsə də, mövzu baxımından dəyişərək milli cəmiyyətin inkişaf təmayüllərini və ehtiyaclarını ifadə etməyə başladı. Get-gedə vətənpərvər bir mahiyyət alan bu ədəbiyyat özünəməxsus ədəbi məktəbin formalaşmasına da təsirsiz qalmadı" [3, s.236].

XX əsr poeziyamızın görkəmli nümayəndəsi Məhəmməd Hadi ilk dəfə "Füyuzat" jurnalının 1 noyabr 1906-cı il nömrəsində çap etdiriyi "Amali-tərəqqi"

adlı müxəmməsində bütün arzu və istəklərinin, fikir və əməllərinin vətən və millətlə bağlı olduğunu yazır.

İlk dəfə "Təkamül" qəzetinin 16 noyabr 1906-cı il nömrəsində çap edilmiş "El fəryadı" adlı müxəmməsində M.Hadi xoşbəxt gələcəyə çatması üçün xalqına, vətəninə azadlıq arzuladığını bəyan edir:

Hürriyyət ilə millət edər kəsbi-məali,
Hürriyyət ilə mülkün olur qiyməti ali,
Avropalı hürriyyət ilə tapdı kəmali [4, s.26].

Xüsusi olaraq qeyd etmək istərdik ki, əgər M.Hadi əsərlərində birbaşa vətənindən, milli-istiqlal ideyasından danışırdısa, zəmanəsinin eybəcərliklərini, tərəqqiyə, yeni təhsilə, qadın azadlığına mane olan köhnəpərəstləri, vətənin taleyinə laqeyd olan şəxsləri pisləyən dahi satirik Mirzə Ələkbər Sabir də vətənpərvərlik məfkurəsinə xidmət edirdi.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə sevinc və ruh yüksəkliyi ilə ölkəmizin milli müstəqilliyini, üçrəngli bayrağımızı vəsf edən Cəfər Cabbarlı, Əhməd Cavad, Əli Yusif və digər şairlər 28 aprel çevrilişindən sonra üstüörtülü şəkildə, rəmzlərdən, məcaz və təşbehlərdən istifadə etməklə itirilmiş azadlığa ağı deyir, kədər və qüssələrini ifadə edirdilər. Bədri Seyidzadənin "Acı xəndə", "Mən ağlaram", "Bir həsbi-hal", Cəfər Cabbarlının "Yaşamaq", Əhməd Cavadın "Nə yazım", "Olsun qoy" və s. şeirləri bu cür əsərlərdəndir. Lakin Bayraməli Abbaszadə Hammal, Məmməd Səid Ordubadi, Əli Nəzmi, Mikayıl Rəfili, Əli Nazim, Süleyman Rüstəm, Mikayıl Müşfiq kimi yeni quruluşu ruh yüksəkliyi ilə qarşılayan, onun tərifinə şeirlər yazan şairlər də vardı.

Sovet dövründə fəaliyyət göstərən bir sıra şairlərimiz əsərlərində vətən torpağını vəsf edərkən onu bu xoş günlərə çatdırmış Kommunist Partiyasına, sovet hökumətinə mədhiyyələr deməyi də unutmamışlar. XX əsrdə yazılmış vətənpərvərlik ruhlu müxəmməslər arasında Mikayıl Müşfiqin 1926-cı ildə yazdığı "Ölkəm" şeirinin özünəməxsus yeri vardır. Dörd bənddən ibarət bu şeirin hər bəndinin sonunda "Qəmlərdən, ələmlərdən azad olan ölkəmdə" misrası təkrar edilir (buna görə də əsəri müxəmməs-tərcibənd adlandırmaq olar), son bənddə müəllif adından istifadə etmişdir. Şair vətənini qışı getmiş, sevinc və nəşə ilə ədəbi bir baharda yaşayan ölkə kimi təsvir edir:

Qış getdi ölümlərlə, ölkəmdə bahar vardır,
Bağlarda gözəlliklər, şən qəhqəhələr vardır,
Sevdalı könüllərdə sevdikləri yar vardır,
Daim sevişirlər, bax, məzdad olan ölkəmdə,
Qəmlərdən, ələmlərdən azad olan ölkəmdə [5, s.58].

1944-cü ildə yazdığı "Vətənim" adlı müxəmməsində Ə.Nəzmi doğma yurdu qədim tarixi, mədəniyyəti, qəhrəman övladları, yeraltı-yerüstü sərvətləri olan bir məmləkət kimi vəsf edir. Bu diyar əsl xoşbəxtliyə sovet hakimiyyəti illərində qovuşmuşdur:

Bir irs olaraq qaldı bu torpaq babamızdan,
Lakin ona şən Oktyabr verdi hüquq, şan,

Al bayrağın altında işıqlandı bu dövran,
Nemətli bu torpaq da, bu bayraq da bizimdir,
Azərbaycan doğma, müqəddəs vətənimdir [6, s.285].

Sonrakı dövrlərdə doğma vətənə, onun ayrı-ayrı bölgələrinə həsr edilmiş müxəmməslər meydana çıxmışdır. Kamil Sərbəndinin "Lahıcım" [7, s.186], Hacı Arif Buzovnalının "Buzovnam" (8, s.197-198) və bir sıra digər şeirləri buna misal gətirmək olar.

XX əsrin qüdrətli şairi M.Ə.Sabir və onun ardıcılları – Əli Nəzmi, Səməd Mənsur, Əliqulu Qəmküsar, Məmməd Səid Ordubadi, Cəfər Cabbarlı, B.Abbaszadə Hammal, Ə.Vahid və b. yazdıqları bir sıra müxəmməslərdə xalqın tərəqqisinə mane olan qüvvələr satirik qələmlə tənqid və ifşa olunurdu.

Görkəmli nasir Məmməd Səid Ordubadi (1872-1950) klassik üslubda bir sıra şeirlərin, o cümlədən, müxəmməslərin müəllifidir. Tədqiqatçı Fəridə Vəzirovanın göstərdiyinə görə, ədib əsasən XX əsrin əvvəllərində, sürgündə olduğu zaman və sovet hakimiyyətinin ilk onilliyində şeir yaradıcılığı ilə məşğul olmuşdur [9, s.53]. Şeirlərindən onun mollanəsrəddinçi, Sabir ədəbi məktəbinin ardıcılı olduğunu görürük. Məmməd Səidin müxəmməsləri keçmişin qalığı olan köhnəpərəstlərin, riyakar din xadimlərinin pislənməsinə, xarici ölkələrdə, xüsusilə də İranda baş verən hadisələrə, beynəlxalq imperializmin istismarçı siyasətinin ifşasına, yeni sovet quruluşunun üstünlüklərinin təbliğinə həsr edilmişdir. Ədib 1925-ci ildə yazdığı "Şeyxin bir moizəsinə ithaf" adlı yeddi bəndlik müxəmməsində əmin olduğunu bildirir ki, din xadimlərinin tamamilə hörmətdən düşməsinə, məscidlərin məktəblərə çevrilməsinə az qalmışdır:

Millət daha heç görməyəcək şeyxdən asar,
Gəlməz daha insanlığa bu surəti-idbar,
Məscid verilər məktəbə, qalmaz daha dərbar [10, s.44].

Qarabağ ədəbi mühitinin yetirməsi, şeirlər toplusu və "Gülşəni-maarif" təzkirəsinin müəllifi Nəcəfqulu bəy Şeydanın (1858-1939) əsərlərində isə sovet quruluşunun açıq tənqidini görürük. Şairə görə, yeni rejim əslində Çar Rusiyasının başqa bir formasıdır. Onun 1915-ci ildə yazdığı "İyidir" rədifli yeddi bəndlik müxəmməsində Çar Rusiyasında məhkum vəziyyətdə yaşayan əhalinin halından xəbərsiz olan imkanlı təbəqə nümayəndələri pislənir. Qafil adlandırdığı bu cür insanlara üz tutan müəllif deyir ki, eyş-işrət içində yaşamağınız hələ ölkədəki vəziyyətin yaxşı olduğuna dəlalət etmir. Yoxsul, səfil insanları düşünmək, onlara yardım etmək lazımdır. Şair insanların hüquqlarının müdafiəsi məsələsinə toxunur, "Etməsə hifzi-hüquq şəxs taparmı iqbal" deyır. Nəcəfqulu bəy xalqının taleyinə laqeyd olub öz mənfəətini düşünənləri sərt şəkildə millət xaini adlandırır:

Xaini-millət olub satdılar gözəl vətəni,
Qarət etdilər təmam əhlini, əzzəl vətəni,
Qoydular xaki-məzəllətdə o əfsəl vətəni [11, s.88].

N.Şeyda 1923-cü ildə yazdığı altı bəndlik "İstər" rədifli müxəmməsində gündən-günə insanların xasiyyətinin, əxlaqının pozulmasından, millətin adət-ənənələrini itirməsindən şikayət edir:

Günü-gündən xəsaili-müasirlər rəzil oldu,
Əsasi-adəti-millət pozuldu, bidəlil oldu,
Miləl içrə cahanda cümləsi xarü zəlil oldu [11, s.83].

Şeirin sonunda şair göstərir ki, xalqı cəhalət zülmətindən elm, mədəniyyət, maarif, təhsil xilas edə bilər.

Dramaturgiyamızın görkəmli nümayəndəsi Cəfər Cabbarlı (1899-1934) ədəbi-bədii yaradıcılığa şeirlə başlamış, ilk şeirlərini 1915-1916-cı illərdə "Babayi-Əmir" jurnalında çap etdirmişdir. Sənətkar lirik və satirik şeirlərini əruz və heca vəznlərində yazmışdır. Cabbarlı şeirlərini əsasən 1915-1916-cı illərdə və sovet hakimiyyətinin ilk illərində yazıbdır. Satirik şeirlərinin sayı daha çoxdur. Akademik Məmməd Arif onun ilk poetik əsərlərinin nəşri barədə yazır: "1916-1919-cu illərdə "Babayi-Əmir" jurnalında Cabbarlının 40-dan artıq satirik şeiri çap edilmişdir. Jurnalın elə nömrəsi var ki, orada "Qəyur əyyar", "Şəbrəng", "Şəbrəng əyyar" və s. imzalarla Cabbarlının iki-üç şeiri çap edilmişdir" [12, s.17]. Görkəmli yazıçının xüsusilə satirik şeirləri onu narahat edən ictimai məsələlərdən bəhs edir, xalqın ehtiyaclarına qarşı laqeyd olan varlı təbəqə nümayəndələrini, xalqın mənafeyinə uyğun işlər görməyən xeyriyyə cəmiyyətlərini, öz mənafeyini güdən ziyalıları, riyakar mollaları, yeni təhsilə, qadın azadlığına qarşı çıxan köhnəpərəstləri pisləyir, yoxsul, imkansız təbəqənin halına acıdığını ifadə edirdi. Qeyd edək ki, Cabbarlının satirik şeirləri Sabirin təsiri ilə, əruz vəznində, klassik poeziyanın bir sıra janrlarında yazılıbdır. Bu əsərlərin içində müxəmməslər sayca çox olmasa da, müəyyən mövqeyə malikdir. Onun bütün şeirlərində, o cümlədən, müxəmməslərində Sabirin satirik üslubunun, fikri ifadə etmək tərzinin təsirini görürük. Cabbarlının müxəmməslərinin çoxu, Sabirinkilər kimi, tərci beytlərlə başlayır, beş misradan ibarət hər bəndin sonunda tərci beyti gəlir. O da, Sabir kimi, şeirlərində bəzi forma sərbəstliyinə yol vermişdir. Məsələn, "Dəng olduq" şeirinin ilk üç bəndi müxəmməsdir, beş misradan ibarətdir, lakin son iki bəndi altı misradan ibarətdir. "Əl götür" şeirinin ilk dörd bəndi müxəmməs, son üç bəndi müsəddədir. Sabirin təsiri ilə XX əsr sənətkarları arasında yol verilən bu forma sərbəstliyi bütün diqqəti fikrin daha dəqiq, emosional çatdırılmasına yönəltməyə kömək edirdi. Bir formal cəhət də diqqəti cəlb edir: əgər mollanəsrəddinçi şairlər və ya bu jurnala, redaktoruna hörməti olan şairlər əsərlərində "A molla!" müraciət formasından istifadə edirdilərsə, şeirlərini "Babayi-Əmir"də nəşr etdirən şairlərin bir çoxu əsərlərini "Ay Baba" sözləri ilə başlayırdı. Beş bəndlik "Olmağa" adlı müxəmməsində müəllif şairləri döyən, onlara heç nə satmayan, məktəbləri görməyə gözü olmayan, müəllimləri qorxudan, mədəniyyətdən uzaqlaşıb dağda çoban olmağa üstünlük verən nadanları pisləyir:

Bir də bu məktəblərin hamısını yıxmağa,
Həm də müəllimlərin burnunu bərk sıxmağa,
Qət eləyib cümləsi şəhri qoyub çıxmağa,
Dağlı kimi dırmaşıb dağda çoban olmağa,
Bakılılar and içib şiri-jəyan olmağa [13, s.92].

Sabirin kinayəli tənqid və ifşa tərzinin təsirini onun bütün ardıcıllarının satirik şeirlərində görmək olar. Cəfər Cabbarlının "Böhtan yazıbdır", "Dəng olduq" kimi müxəmməslərindəki kinayəli üslub Sabirdən gəlir, onu Əli Nəzmi, Əliqulu Qəmküsarda da görmək olar. Şair Babaya, yəni "Babayi-Əmir" jurnalına müraciət

edərək dərc etdiyi yazıların təhlükəli mövzulara aid olduğunu deyir, bu işdən əl götürməyi məsləhət görür. Müəllif sanki jurnalın yazılarının çox pis nəticələnəcəyindən danışır, lakin əslində bu da tənqid və ifşa üsuludur. O, satirik yazıların təsirini, onların müəlliflərini gözləyən təhlükələri sadalamaqla əsl məqsədinə nail olur, mənfi tipləri ifşa edir.

C.Cabbarlının sovet hakimiyyətinin ilk illərində yazdığı "Məhkum Şərqə" adlı dörd bəndlik müxəmməsi siyasi lirikanın gözəl nümunəsidir. Müəllif Qərb ölkələri tərəfindən torpaqları işğal, sərvətləri istismar edən Şərqin övladlarına müraciət edərək deyir ki, aciz olma, hərəkətə gəl, mübarizə apar, ya azadlığa çıx, ya da məhv ol:

Topla nə gücün varsa, giriş qəti cidalə!
Ya haqqını al, ya əbədi öl, laməhalə [13, s.72].

XX əsr poeziyamızda klassik irsin, Füzuli ənənələrinin davamçısı, qəzəl ustadı kimi tanınan Əliağa Vahid (1895-1965) lirik şair olsa da, onun yaradıcılığında ictimai məzmunlu şeirlər mühüm yer tutur. O, istər əsrin əvvəllərində, istərsə də sovet dövründə yazdığı əsərlərində ictimai həyatda baş verən hadisələrə münasibət bildirmiş, haqsızlıq və ədalətsizlikləri, nöqsanları tənqid etmiş, İkinci Dünya müharibəsi illərində faşizmi ifşa edən şeirlər yazmışdır. Şair satirik şeirlərində, o cümlədən, müxəmməslərində Sabirin satirik üslubunun davamçısı kimi çıxış edir. Vahidin satirik şeirləri içində müxəmməslərin sayının çox olduğu (yüzdən artıq) diqqəti cəlb edir. Yazdığı müxəmməslərinin sayının çoxluğuna görə onu Əli Nəzmi ilə müqayisə etmək olar.

Sovet dövründə yazdığı şeirlərində şair keçmişin qalıqlarını, xüsusilə dini fanatizmi, dini ayinlərin icrasını tənqid edir, yeni sosialist quruluşunun üstünlüklərindən danışır. O, xüsusilə din xadimlərinin əməllərinin ifşasına daha çox fikir vermişdir. "Köhnə müsəlmanlar", "Şeyxə bir imdad", "Şeyxə bir hədiyyə", "Dövran bizimdir", "Acı gülüşlər", "Molla Zaman" və s. bir sıra müxəmməslərində vahid xalqın inamından sui-istifadə edərək dini mərasimlərdə ciblərini dolduran, qarınqululuq edən mollaları pisləyir. Onun ayrı-ayrı şeirlərində Fazil Dərbəndi, Dəxil, Qumri kimi mərsiyəxan şairlər tənqid hədəfinə çevrilir. Şair yeni quruluşun üstünlüklərindən, köhnəliyin, dini fanatizmin geri çəkilməsindən bəhs etdiyi şeirlərində işçi, seçki, selsovet, kolxoz kimi XX əsrin 20-30-cu illərində işlənən sözlərdən tez-tez istifadə edir.

Şairin "Sür dərəyə", "Doktordur bu" və s. müxəmməslərində Cənubi Azərbaycandakı cəhalət, mollaların hər yanda hökmran mövqedə olması, şarlatan həkimlər, digər ictimai bəlalar pislənməkdədir.

Əliağa Vahid İkinci Dünya müharibəsi illərində yazdığı "Heç yox imiş", "Dədəm, vay", "Qanmadı Hitler", "Natamam oldu", "Quduz Hitlerə" və s. müxəmməslərində Hitlerin, faşist Almaniyasının qaniçən, istismarçı siyasəti ifşa edilir, müzəffər Qızıl Ordunun qələbələri alqışlanır.

Müasir poeziyamızda cəmiyyətimizdəki nöqsanları, qüsurlu cəhətləri tənqid və ifşa edən bir sıra müxəmməslər diqqəti cəlb edir. Klassik üslubda Sabiranə şeirləri ilə məşhur olan müasir şairimiz Baba Pünhanın (1948-2004) vətənin taleyinə, Qarabağ müharibəsinə həsr etdiyi şeirləri böyük maraq doğurur. Xüsusilə onun Füzulinin "Pənbeyi-daği-cünun içrə nihandır bədənim" misrasıyla başlanan qəzəlinə yazdığı "Vətənim" adlı təxmisi diqqəti cəlb edir. Şeirdə forma orijinallığı ondan ibarətdir ki, şair Füzulinin yeddi beytlik qəzəlinin bütün beytlərinə təxmis yazmaqla

kifayətlənməmiş, iki beytə mötərizədə əlavə təxmislər də yazmışdır. Şeir Qarabağın müharibə gedən bölgəsindən Bakıya qaçaraq alverlə sərvət sahibi olmuş, başı eyş-işrətə qarışdığından od-alov içində yanan vətənini unutmuş bir nankordan bəhs edir. Baba Pünhan Füzuli beytlərinə əlavə etdiyi misralarda şərəfsizcəsinə qaçqınlıq statusundan bəd əməllər üçün istifadə edənləri satirik qələmi ilə ittiham edir.

Müasir şairlərimizdən Kamil Sərbəndi əsərləri içində müxəmməslərin sayının çoxluğu ilə diqqəti cəlb edir. Əli Nəzmi və Əliağa Vahiddən sonra o da yüzdən artıq müxəmməs müəllifidir. K.Sərbəndi yaradıcılığının ən səciyyəvi cəhətləri Mirzə Ələkbər Sabir, Məhəmməd Hadi, Əliağa Vahid kimi şairlərin irsindən bəhrələnməsindən və dövrünün ən kəskin ictimai problemlərini, bəlalarını tənqid etməsindən ibarətdir. Qeyd edək ki, o, M.Ə.Sabir, M.Hadi və Ə.Vahid şeirlərinə nəzirələr yazmış, Vahidin bir qəzəlinə təxmis bağlamışdır. K.Sərbəndinin əksər şeirlərində, o cümlədən, “Bağrım yarılar”, “Almasam ölləm”, “Yağı bizim, dağı sizin”, “Sən də deyirsən kişiyəm”, “Hələ haqqı qanmadınmı?”, “Etməkdəsiz”, “Doymuram”, “Gül ki, sənindir hələ fürsət”, “Dolan, ay fəqir müəllim”, “Get təzədən gəl, bala!”, “Get başına qıl çarə”, “Afərin”, “Fəhlə, necədir qurduğun aləmdə güzarın?”, “Edəcəkdir”, “Bu nə halətdi, bala?”, “Bizə nə?” və s. bir sıra başqa müxəmməslərində xalqın hesabına var-dövlət sahibi olan məmurlar, məqsədinə çatmaq üçün yalan söyləyən, yaltaqlıq edən şairlər, mənsəbpərəstlər, yerlipərəst və qohumbazlar pislənir, haqqının tapdalandığını görüb itaətkarlıqla susan, haqqını tələb edə bilməyən sıravi adamlar məzəmmət edilir. “Almasam ölləm” adlı müxəmməsində rüşvətxorluğu cibgirliyə bənzədən müəllif bu iki pis adətin tərgidilməsi müşkül olan xəstəlik olması barədə çox aydın bir dillə yazır:

Rüşvət ki var, adətdi mənə, almasam, ölləm!
Cibgir kimi yad ciblərə əl salmasam, ölləm! [7, s.8]

Əruz, heca və sərbəst vəznlərdə şeirlər yazan, klassik poeziyanın bir sıra janrlarına müraciət edən Mirsalam Müasirin müxəmməslərinin əksəriyyəti satirik mövzudadır. O, “Yaz”, “Ay bərəkallah”, “Seçkilər”, “Sənə”, “Hacı”, “Millət vəkilləri”, “Ay həzərat” və s. müxəmməslərində müasir həyatımızdakı nöqsanları, haqsızlıqları, hər şeyi şəxsi mənafeyinə qurban verən şəxsiyyətsizləri satirik bir qələmlə pisləmişdir. Böyük Sabirin güclü təsiri altında olan M.Müasir onun şeirlərinə bir sıra nəzirələr yazmışdır. Təsadüfi deyil ki, şairin proqramı, yaradıcılıq manifesti kimi səslənən “Yaz” adlı müxəmməsi Sabirə müraciətlə başlanır:

Dirilib gəl, baba Sabir, yenə əşarını yaz,
Millətin halını gör, eybli hər karını yaz [14, s.333].

“Sənə” adlı müxəmməsində M.Müasir zəhmətə xor baxan, milli kökündən uzaqlaşan, əyyaşlığa alışmış gənclərin tüfeyli həyat tərzini pisləməkdədir.

Arif Buzovnalının “Cahil qoca belə dedi...” adlı müxəmməsində heç bir müqəddəs fikri, amalı olmayan, bütün dünyanı nəfsinə qurban verməyə hazır olan əqidəsizlər şairin satirik qələmi ilə pislənir. Hər bəndin sonunda nəqərat kimi təkrar edilən tərci beytində mənfi tipin çürük fəlsəfəsi onun öz dili ilə ifşa edilir:

Al-sat, talan et, vur-yıx, çal-çap, ye bu dünyanı,
Bir anlıq olan zövqə qurban de bu dünyanı [14, s.289].

XX əsr poeziyamızda dünyada baş verən hadisələrə, müharibələrə, inqilabi hərəkatlara münasibət bildirən, beynəlxalq imperializmin işğalçı siyasətini pisləyən şeirlərin sayı artmışdı ki, bunun da əsas səbəblərindən biri, fikrimizcə, ölkədə xarici və yerli mətbuat nümunələrinin, qəzet və jurnalların yayılmağa başlanmasından ibarət idi.

XX yüzilliyin əvvəllərində Səttarxanın başçılığı ilə Təbrizdə başlanmış, bütün İrana yayılmış Məşrutə hərəkatını (1905-1911) Şimali Azərbaycan ədibləri, şair və yazıçıları ruh yüksəkliyi ilə qarşılamışdılar. M.Ə.Sabir, M.Hadi, Ə.Nəzmi və başqaları müxəmməslərində Məşrutə inqilabının qəhrəmanlarını alqışlamış, əksinqilabi qüvvələri, mürtəceləri pisləmişlər. Bayraməli Abbaszadə Hammalın “Əmu” adlı şeirinin iki bəndi müxəmməs, iki bəndi müsəddəsdir. Burada müəllif inqilab nəticəsində İrandan qaçmağa məcbur olmuş Məhəmmədəli şaha törətdikləri cinayətləri xatırladır, onun aqibətinə sevindiyini deyir. 1924-cü ildə yazdığı “Xəlifə mərsiyəsi” adlı müxəmməsində şair Türkiyədə inqilabi hadisələr nəticəsində sultanlıqla bərabər xilafətin də ləğv edildiyini sevinclə xəbər verir.

Məmməd Səid Ordubadi “Gözüm aydın” adlı dörd bəndlik müxəmməsində İranda parlamentin fəaliyyətə başlamasından bəhs edir. Müəllif göstərir ki, xalqı soyan xan və bəylərdən ibarət olan bu parlament zəhmətkeş xalqın, fəhlə və kəndlilərin mənafeyini müdafiə etməyə qadir deyil. Bu məclis istismarçı təbəqənin xalqa qurduğu tələdən, qazanc mənbəyindən başqa bir şey deyil:

Tapmışlar maaş almağa ünvan, gözüm aydın!
Açmış hacılar bir yeni dükkan, gözü aydın! [10, s.26]

“Hindistanda vəba” adlı beş bəndlik müxəmməsində ədib Hindistanın Pəncab əyalətində əhali arasında yayılmış vəba epidemiyasına qarşı heç bir tədbir görməyən Britaniyanın hakim dairələrini kəskin tənqid atəşinə tutur.

XX əsr Azərbaycan şairləri müxəmməs janrında lirik-aşiqanə poeziyanın bir sıra dəyərli nümunələrini yaratmışlar. Hüseyn Cavidin “Neçin?” adlı altı bəndlik müxəmməsi bu nəzm şəklinin bütün formal tələblərinə cavab verir. Yeganə fərqli cəhət ondan ibarətdir ki, şeirin birinci misrası ikinci bəndin sonunda təkrar edilir (“Mən neçin məsti-eşqi-yar oldum?”). Şeirin lirik qəhrəmanın bir gözələ, onun ismətinə, nəzakətinə dəlicəsinə aşiqdir. Lakin onun məhəbbəti qarşılıqsızdır. Xanım ona qarşı laqeyddir. Bu vəziyyət aşiqi bədbinləşdirir. O, “Mən nə üçün onunla bir dəqiqə də olsun görüşə bilmirəm, nə üçün belə bədbəxtəm” deyə özünə suallar verir.

Qarabağ ədəbi mühitinin yetirməsi, XX əsrin əvvəllərində bir sıra mətbuat orqanlarında şeirləri ilə çıxış etmiş İbrahim Tahir Musayevin (1869-1943) 2013-cü ildə çap edilmiş əsərlər toplusuna on müxəmməs və on təxmis daxil edilmişdir. Müxəmməslərdən altısı lirik-aşiqanə mövzudadır. Şairin müxəmməsləri bəzi cəhətləri ilə diqqəti cəlb edir. Onun bir sıra şeirlərində, o cümlədən, müxəmməslərində sıravi oxucunun başa düşə bilmədiyi mürəkkəb ərəb-fars söz və ifadələrinə rast gəlirik. Yəqin ki, bunu onun bir zamanlar “Füyuzat” jurnalı ilə əməkdaşlıq etməsi, Məhəmməd Hadi yaradıcılığından təsirlənməsi ilə izah etmək lazımdır. Onun “Xatirün etsə arizi-mahın sənin xütur” misrasıyla başlanan beş bəndlik müxəmməsinin beşinci – sonuncu bəndində oxuyuruq:

Avazeyi-camalında doldu Qərbü Şərq,
Etdin qülubi-nası kəmali-sürura qərq,

Kim der sana ki, yar ilə əğyarə qoyma fərq,
Gendən görəndə Tahiri keçmə misli-bərq,
Bir ömrsən ki, sürətlə eylədin mürur [15, s. 564].

Bəndin əvvəlində müəllif məşuqəyə deyir ki, sənin gözəlliyinin səs-sorağı Qərbdə və Şərqdə yayılmışdır, insanların qəlbini sevincə qərq etmisən. Bəndin sonuncu misralarında şair gözəl bir poetik obraz işlətmişdir. O, gözələ deyir ki, məni gördükdə ildırım kimi sürətlə kənardan keçmə. Elə bil ki, sən sürətlə keçib gedən ömürsən. İnsan nə qədər uzun yaşasa da, ona elə gəlir ki, ömrü sürətlə keçib getmişdir. Çünki həyat insan üçün ən şirin bir nemətdir. Müəllif üçün sevgilisi əziz olduğundan onu sürətlə keçən ömrə bənzədir.

XX əsrin birinci yarısında yaşamış Nəcəfqulu bəy Şeyda, Məhəmməd ağa Müctəhidzadə, Məhəmməd Hadi Sabit, Hacıağa Hacı və b. şairlər də lirik-aşiqanə mövzuda diqqətəlayiq müxəmməslər yazmışlar.

XX əsrin ikinci yarısından, xüsusilə əsrin sonlarına doğru poeziyamızda dini mövzuda yazılan şeirlərin artdığı müşahidə olunur. Dini mövzulu şeirlər yazan müəlliflərdən biri də Yusif Qulammirzə oğludur. Onun "Tovhid deyilir", "Mühəmməd", "Quran", "Həzrət Əli haqqında", "Fatimeyi-Zəhradır", "Namaz", "Cihad", "Ölüm", "Şeytan" adlı müxəmməsləri dini mövzuya həsr edilmişdir.

**Nəticə.** XX əsrdə Azərbaycan ədəbiyyatında heca vəznli şeirlərin sayının xeyli artdığı, sərbəst şeirin meydana çıxdığı, Avropa şeiri janrlarının poeziyamıza daxil olduğu bir dövrdə müxəmməs janrı yaşarılığını, əsrin əhvali-ruhiyyəsini, qabaqcıl ideyaları əks etdirmək qabiliyyətini sübut etdi, Mirzə Ələkbər Sabirin yaradıcılığında inkişafının ən yüksək səviyyəsinə çatdı. Məhəmməd Hadi, Səməd Mənsur, Əli Nəzmi, Əliağa Vahid və başqa şairlərin müxəmməsləri zamanın ən aktual, vacib problemlərindən bəhs edir. Əsrin görkəmli sənətkarlarının yaradıcılığında fikir və hisslərin ifadəsində müxəmməs nəzm şəklinin yeni imkanlarının üzə çıxdığını görürük. Əvvəlki dövrlərlə müqayisədə müxəmməsin mövzu dairəsinin daha da genişləndiyi müşahidə olunur, lirik-aşiqanə, vətənpərvərlik, ictimai, beynəlxalq, İran Məşrutə inqilabı, fəlsəfi, dini, satirik, məişət və s. mövzularda müxəmməslər meydana çıxır. "Böyük Ermənistan" xülyası ilə Azərbaycanda vəhşiliklər törədən erməni millətçilərini pisləyən, vətən övladlarını torpaqlarımızın müdafiəsinə qalxmağa çağıran, qəhrəmanlıq nümayiş etdirənləri alqışlayan müxəmməslər meydana çıxır. XX əsr müxəmməslərində bir sıra forma yenilikləri müşahidə olunur. Müxəmməsin mövzu və formasında yeniliklər etmiş ən böyük şairimiz Mirzə Ələkbər Sabirdir. Xalqı istismar edən bəy, xan və mülkədarları, riyakar din xadimlərini, yeni təhsilə, qadın azadlığına mane olan köhnəpərsətləri kəskin satirik qələmlə ifşa və tənqid edən Sabirin müxəmməsləri sonrakı dövrlərdə satirik mövzulu müxəmməslər yazan şairlərə – Əli Nəzmi, Əliqulu Qəmküsar, Səməd Mənsur, Cəfər Cabbarlı, Məmməd Səid Ordubadi, Əliağa Vahid və başqalarına örnək oldu. XX yüzillikdə yazılan satirik mövzulu müxəmməslərin hamısı sabiranədir. XX əsrin ikinci yarısında, son onilliklərində qələmə sarılmış müxəmməs müəllifləri bu janrda geniş mövzu dairəsini əhatə edən əsərlər yazmışlar. XX əsrin sonlarının janr mənzərəsinin göstəricilərindən biri kimi sovet dövründə sayı azalan dini mövzulu müxəmməslərin sayının artdığını qeyd etmək istərdik. Klassik nəzm şəkillərində yazıb-yaradan bır sıra şairlərimiz hazırda müxəmməs janrında əsərlər yazmaqda davam edirlər.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT:

1. Azərbaycan tarixi. Yeddi clddə. Beşinci cild. Bakı: "Elm", 2001, 672 s.
2. Məmai Məmo bəy. Şeirlər. Bakı: "Elm və təhsil", 2016, 210 s.
3. Cəfəroğlu Əhməd. Seçilmiş əsərləri. Bakı: "Mütərcim", 2008, 408 s.
4. Hadi Məhəmməd. Seçilmiş əsərləri. İki cilddə. Birinci cild. Bakı: "Elm", 1979, 470 s.
5. Müşfiq Mikayıl. Seçilmiş əsərləri. Bakı, 2013, 596 s.
6. Nəzmi Əli. Seçilmiş əsərləri. Bakı: "Yazıçı", 1979, 361 s.
7. Dərbəndi Kamil. Yağı bizim, dağı sizin. Bakı: "Nafta-Press", 2008, 404 s.
8. Buzovnalı Hacı Arif. Xəzərim. Bakı: "Qanun", 2009, 304 s.
9. Vəzirova Fəridə. Məmməd Səid Ordubadi. Bakı: "Gənclik", 1970, 122 s.
10. Ordubadi Məmməd Səid. Seçilmiş şeirlər və hekayələr. Bakı: "Azərnəşr", 1951, 183 s.
11. Şeyda Nəcəfqulu bəy. Şeirlər. Bakı: "Nurlan", 2006, 158 s.
12. Arif Məmməd. Seçilmiş əsərləri. Üç cilddə. İkinci cild. Bakı: Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı, 1968, 516 s.
13. Cabbarlı Cəfər. Əsərləri. Dörd cilddə. I cild. Bakı: "Şərq-Qərb", 2005, 328 s.
14. Müasir Hacı Mirsalam. Deyilən söz yadigardır. Bakı: MBM, 2012, 568 s.
15. Tahir İbrahim. Əsərləri. Bakı: "Elm və təhsil", 2012, 633 s.

***Naila Mustafaeva***

**Themes of muhammases in Azerbaijan literature of the 20$^{th}$ century**

***S u m m a r y***

In muhammas written in Azerbaijani literature at the beginning of the 20$^{th}$ century, there is an expansion of the thematic range, new searches in form. Muhammas of the great satirist Mirza Alekber Sabir (1862-1911) begins with couplets, these couplets complete the five-line stanzas. There are other formal innovations. Muhammas were written mainly on lyrical-love, patriotic, socio-political, philosophical, religious and other topics. In a number of patriotic muhammases, the beauty of their native land are praised. Some of them are dedicated to protecting the homeland from invaders. Poets wanted to see their homeland free, enlightened, and they wrote about it in their works at the beginning of the 20$^{th}$ century. Attention is drawn to the increase in the number of satirical muhammases compared to previous periods. At the beginning of the 20$^{th}$ century, political activity increased among the population in Azerbaijan and other places of the Russian Empire. The authorities of Russia, disturbed by this, carried out a massacre between Armenians and Azerbaijanis. Much blood was shed, towns and villages were ravaged. Such poets of the time as Mir Mohsun Navvab, Mamo Bey Mamai, Ridzhai, Shaig, Sheyda wrote in their muhammases about the true perpetrators of the incident, the need to unite national forces, and to protect their native land from invaders.

The famous poet Mohammed Hadi wrote in his muhammases about the need to achieve freedom. Because only free people can achieve true progress, prosperity.

In Soviet times, a number of poets continued to write their poems in classical genres. Poets such as B.Abbaszade Hammal, M.S. Ordubadi, A. Nazmi, Mikayil Rafili, Ali Nazim, Suleyman Rustam, Mikayil Mushfig praised their native land in

their muhammases, while not forgetting to note the role of the Communist Party in the prosperity of the country.

Quite a few poems were devoted to international events, criticism of imperialist forces. During the Second World War, Aliaga Vahid in his muhammases predicted the inevitable defeat of German fascism, expressed admiration for the heroism of Soviet soldiers.

In the second half, the end of the 20th century, the number of muhammases on religious themes is growing in Azerbaijani poetry.

***Наиля Мустафаева***

**Тематика мухаммасов в азербайджанской литературе XX века**

***Резюме***

В мухаммасах (пятистишие), написанных в азербайджанской литературе в начале XX века, наблюдается расширение тематического диапазона, новые поиски в форме. Мухаммасы великого сатирика Мирза Алекбера Сабира (1862-1911) начинаются двустишием, эти двустишия завершают строфы из пяти строк. Есть и другие формальные нововведения. Мухаммасы столетия написаны в основном на лирическо-любовную, патриотическую, общественно-политическую, философскую, религиозную и др. темы. В ряде патриотических мухаммасах восхваляются красоты родного края. Некоторые из них посвящены защите родины от захватчиков. Поэты хотели видеть свою родину свободным, просвещенным и об этом писали в своих произведениях в начале XX века. Привлекает внимание рост числа сатирических мухаммасов по сравнению с предыдущими периодами.

В начале XX века в Азербайджане и других местах российской империи среди населения растет политическая активность. Обеспокоенные этим власти царской России учинили резню между армянами и азербайджанцами. Было пролито много крови, разорены города и села. Такие поэты того времени, как Мир Мохсун Навваб, Мамо бек Мамаи, Риджаи, Шаиг, Шейда писали в своих мухаммасах об истинных виновниках случившегося, о необходимости объединения национальных сил, защиты родной земли от захватчиков.

Известный поэт Мухаммед Хади писал в своих мухаммасах о необходимости достижения свободы. Потому, что только свободный народ может достичь истинного прогресса, процветания.

В советское время ряд поэтов продолжали писать свои стихи в классических жанрах. Такие поэты, как В. Аббасзаде Хаммал, М.С.Ордубади, А.Назми, Микаил Рафили, Али Назим, Сулейман Рустам, Микаил Мушфиг восхваляли в своих мухаммасах родную землю, в то же время не забывали отметить роль Коммунистической Партии в процветании страны.

Немало стихов были посвящены международным событиям, критике империалистических сил. Во время Второй Мировой Войны Алиага Вахид в своих мухаммасах предрекал неминуемое поражение немецкого фашизма, выражал восхищение героизмом советских солдат.

Во второй половине, конце XX века в азербайджанской поэзии растет число мухаммасов на религиозную тему.